**Günel Xudayarova**
***ADU***
**gunel.xudayarova@gmail.com**

# İNGİLİS DİLİ ÜZRƏ TƏLƏBƏ NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Açar sözlər:** *öyrənmə üçün qiymətləndirmə, öyrənmənin qiymətləndirilməsi, yoxlama.*
**Keywords:** *assessment for learning, assessment of learning, test.*
**Ключевые слова:** *оценивание обучения, оценка изучения, тестирование.*

İngilis dilinin tədrisi zamanı təlimin keyfiyyətini müəyyənləşdirən əsas göstərici tələbələrin əldə etdikləri dil biliklərini tətbiq etmək bacarığı olduğundan, həmin bacarıqların qiymətləndirilməsi də tədris prosesinin səmərəliliyini üzə çıxaran mühüm vasitə hesab olunur.

Tədris prosesinin inkişaf etdirilməsi üçün tələbə nailiyyətlərinin qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir. Təhsilin keyfiyyətinin artırılması məqsədilə tələbələrin təlim nəticələrini üzə çıxaran qiymətləndirmə mexanizmlərinin hazırlanması və həmin mexanizmlərin qiymətləndirmə növlərinə və formalarına uyğun tətbiq olunması müasir dövrdə bu fəaliyyətə qoyulan əsas tələblərdəndir. Bu səbəbdən təlim vəzifələrinin məqsədyönümlü icrası üçün qiymətləndirmə prosesi obyektiv, ədalətli, şəffaf qurulmalı, müxtəlif üsul və vasitələrdən istifadə olunmalıdır.

Tələbələrin dərsdə fəallığının artırılmasında, öyrənilən dil biliklərinin keyfiyyət səviyyəsinin müəyyənləşdirilməsində, tədris zamanı yaranan çətinliklərin aradan qaldırılmasında qiymətləndirmə mühüm əhəmiyyətə malikdir. Aydındır ki, ingilis dilinin tədrisi zamanı tələbələrin dil biliklərini qiymətləndirmək üçün onların bilik və bacarıqları yoxlanılmalıdır. Yoxlama tapşırıqlarının tərtib olunması zamanı onları real həyatla əlaqələndirmək tələbələrin tənqidi təfəkkürünü inkişaf etdirir və qarşıya qoyulmuş problemi həll etməkdə onlara kömək edir. C.Villis qeyd edir ki, yoxlama tapşırıqları təhsilalanların elmi potensialına uyğun olmazsa, digər müəllimlərlə məsləhətləşdikdən sonra onları dəyişmək mümkündür [8, 143].

Tələbə nailiyyətlərinin qiymətləndirilməsi prosesinin düzgün aparılmaması təhsilalanların öyrənmə həvəsini aşağı sala bilər. Qiymətləndirmə zamanı vaxtın müəyyənləşdirilməsi, materialların təşkili, tələbələrin təlim nəti-

cələrinin qiymətləndirilməsi üsulları və formaları əvvəlcədən müəyyənləşdirilir.

Metodiki ədəbiyyatda formativ qiymətləndirməni öyrənmə üçün, summativ qiymətləndirməni isə öyrənmənin nəticələrinin qiymətləndirilməsi baxımından şərh edirlər [3; 9].

Xarici dillərin tədrisi zamanı öyrənmənin qiymətləndirilməsinin iki ənənəvi test forması vardır: fərdi və inteqrativ testlər. Fərdi testlərdə müvafiq linqvistik bilik yoxlanılır. İnteqrativ testlərdə isə bir neçə dil biliyi əhatəli şəkildə yoxlanılır və qiymətləndirilir [2, 7].

C.Harmer qiymətləndirmə prosesini təhlil edərəkgöstərir ki, qiymətləndirmə tələbələrin nailiyyət əldə etmələrinəmüsbət təsir edir.O, öyrənmə üçün qiymətləndirmə prosesini aşağıdakı kimi müəyyənləşdirir:

- müəllim və tələbələr təlim məqsədlərinə uyğun inkişaf səviyyələrini izləyə biləcəkləri öyrətmə və öyrənmə prosesini səmərəli planlaşdırır;
- tələbələrin maraqlarına uyğun təlim metodu və üsulları seçilir;
- müşahidə etdikləri hadisələri təhlil edə bilməsi;
- tələbələrin motivasiya olunmaları üçün qiymətləndirmənin aparılması üsullarını müəyyənləşdirir;
- qiymətləndirmə meyarı haqqında tələbələr məlumatlandırılır;
- tələbələrdə özünəinam formalaşdırılır;
- tələbələrin özünü qiymətləndirməsinə imkan yaradılır;
- bütün öyrənənlərin nailiyyətləri müəyyənləşdirilir [1, 408].

Tələbələrdə bilik, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin səviyyəsinin yoxlanması və qiymətləndirilməsi təlim fəaliyyətində təhsilverənlərin diqqət etməli olduqları mühüm məsələlərdəndir. Müəllim tələbənin dil biliyini sadəcə onun əldə etdiyi elmi fikirlərə əsasən deyil, dildən istifadə imkanlarına istiqamətlənərək müxtəlif yollarla yoxlayır [5, 119]. Təhsilin keyfiyyətinin artırılması məqsədilə qiymətləndirmə məqsədəuyğun və meyarlara müvafiq aparılmalıdır. Bu məqsədlə, təhsilalanların bilik, bacarıq və vərdişlərinin, habelə mənəvi keyfiyyətlərinin səviyyəsi müntəzəm olaraq izlənilməlidir.

"Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" adlı sənəddə təlim nailiyyətlərinin qiymətləndirilməsi belə xarakterizə olunur:

- təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi ardıcıl və sistemli xarakter daşıyır, təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və yüksəldilməsinə xidmət edir;
- təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların toplanması və onların təhlili ilə müşayiət olunur;

- məqsədəmüvafiqlik, qarşılıqlı dəyərləndirmə və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır [7].

Qiymətləndirmə müxtəlif məqsədlərlə aparıla bilər. Tələbələrin bilik və bacarıqlarının formalaşması səviyyəsini müəyyənləşdirmək üçün onlarla söhbətlər aparılır, onların zəif və güclü tərəfləri araşdırılır. Öyrənənləri müxtəlif fəaliyyə-tlərə cəlb edərək zəruri materiallar yenidən izah olunur.

Penny Ur ingilis dili üzrə tələbə nailiyyətlərinin qiymətləndirilməsinin məqsədlərini aşağıdakı kimi müəyyənləşdirir:

- tələbələrin dil səviyyəsini yoxlamaq;
- tələbələrin nailiyyətlərini izləmək;
- kurs müddətində təhsilalanlara verilən materialları mənimsəmə səviyyəsini müəyyənləşdirmək;
- tələbələrin akademik cəhətdən zəif və güclü tərəflərini bilmək [6, 167].

Qiymətləndirmə təlim prosesini tamamlayan pillə hesab olunur. O, təlimin keyfiyyətini artırmağa, əks-əlaqəni təmin etməyə, müəllim və tələbələrdə məsuliyyət hissini yüksəltməyə, təlimi stimullaşdırmağa şərait yaradır. Bütün növ qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

-məqsədəuyğunluq;

- toplanmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;

- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;

- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;

- təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması [3, 106].

Gündəlik qiymətləndirmə tədris prosesinin səmərəliliyini artıran vasitədir. Bu proses müəllimin dərsin inkişafını izləməsinə, müvafiq metod və üsulları seçməsinə və yaranmış çətinliklərin aradan qaldırılması üçün müxtəlif yollar araşdırmasına imkan yaradır. Dərs zamanı tələbələrlə əməkdaşlıq, onların fəaliyyətlərinin müşahidə olunması və fikirlərin dinlənilməsi qiymətləndirmə prosesinin şəffaf aparılması üçün mühüm əhəmiyyətə malikdir. Tələbə nailiyyətlərinin əldə olunması keyfiyyətlərinin yoxlanması üçün davamlı qiymətləndirmə fəaliyyət növlərinə dair təkliflər hazırlayıb onların tətbiq olunmasına nail olmaq məqsədəuyğun hesab olunur.

Qiymətləndirmə prosesini səmərəli təşkil etmək üçün müxtəlif yollar vardır:

- tələbələri qiymətləndirmə prosesinə cəlb etmək - tələbələrin qiymətləndirmə zamanı fəal iştirakının təmin edilməsi onların motivasiya olmasına və müstəqil qərar qəbul etməsinə imkan yaradır;
- tələbələrdə özünəinam və özünü dəyərləndirmə bacarıqlarını formalaşdırılmaq;
- onların akademik cəhətdən zəif tərəflərini deyil, güclü tərəflərini də aydınlaşdırmaq;
- ilkin qiymətləndirmə zamanı onların peşə seçimi və yaxud gündəlik həyatimkanları ilə bağlı maraqlarını nəzərə almaq;
- nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşmanı təmin etmək [10].

Qiymətləndirmə tələbənin müəyyən müddətdə icra etdiyi fəaliyyətin nəticəsinə verilən dəyərdir. Tələbənin nailiyyət göstəriciləri onun müəyyən sahədə yerinə yetirdiyi tapşırığın səviyyəsinə görə müəyyənləşdirilir.

İngilis dilini xarici dil kimi öyrənən tələbələr üçün qiymətləndirmə üsulları və vasitələri maraqlı tərtib olunmalı, onların inkişaf etmələrinə müsbət təsir göstərməlidir. Müəllim müxtəlif fəaliyyətlərin icrası zamanı dərs müddətində tələbələrlə ünsiyyətə girərək onların öyrənmə prosesini müşahidə edir və tələbələrlə müxtəlif müzakirələr apararaq onların inkişaf səviyyələrini müəyyən edir. Bunun nəticəsində, müəllim bilik və bacarıqların formalaşmasında tələbələrin güclü olduqları istiqamətləri və zəif qalan tərəflərini aydınlaşdırır və öyrənmə məqsədinə uyğun vəzifələri müəyyənləşdirir. Bütün qiymətləndirmə fəaliyyətlərinin yerinə yetirilməsi müddətində tələbələrin çevik olmaq və öyrənilən dildə fikrini səlis ifadə edə bilmək bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi diqqət edilən əsas məsələlərdəndir. Müzakirələr zamanı ingilis dilini xarici dil kimi öyrənən tələbələr birinci dildən çox istifadə etdikləri zaman müəllim onların dil biliklərinin inkişaf etdirilməsi və sərbəst ünsiyyət vərdişlərinin formalaşdırılması üçün növbəti dərslərdə müxtəlif təlim üsullarının tətbiq olunmasını planlaşdırır. Bu proses tələbələrin inkişaf səviyyəsinin izlənilməsi və qiymətləndirilməsi baxımdan mühüm əhəmiyyətə malikdir.

Onu da qeyd etmək lazımdır ki, tələbələrin dil biliklərini təkmilləşdirmək baxımından onların öz nailiyyətlərini qiymətləndirməsiüsullarının tətbiq olunması mühüm əhəmiyyətə malikdir. Belə ki, hər bir tələbənin kifayət qədər yaxşı öyrənə bilmədiyi mövzuları müəyyənləşdirməsi onların nailiyyətlərinin artırılmasına və öyrənmə prosesinin səmərəli olmasına kömək edir. Bu zaman müəllimin rolu aşağıdakı kimi şərh olunur:

- tələbələrin öz nailiyyətlərini izləməsini təmin edir;

- tələbələrə dəstək olmaqla onların zəif bildikləri mövzuları müəyyənləşdirmələrinə kömək edir;
- motivasiyaedici vasitələrlə dilöyrənənlərdə özünəinam hissini formalaşdırır [4, 20].

Reseptiv və produktiv bacarıqların inkişaf etdirilməsi zamanı tələbələrin bilik səviyyələrini aydınlaşdırmaq üçün müxtəlif üsullardan istifadə olunur. Şifahi nitq bacarıqlarını qiymətləndirmə üsullarına sorğu, müzakirə, məlumat boşluğu, müqayisə, təsvir tapşırıqları və rollu oyunları misal göstərmək olar. Yazı bacarıqlarının qiymətləndirilməsində inşa, imla və film haqqında rəy yazılmasını nümunə olaraq qeyd etmək olar. Oxu bacarıqlarının qiymətləndirilməsi üçün çoxşaxəli seçim və cümlələri müvafiq boşluğa yerləşdirmək tapşırıqlarını vermək olar. Eşidib-anlama bacarıqlarının qiymətləndirilməsi zamanı təsvir, müəyyənləşdirmə və təlimatlandırma tapşırıqlarından istifadə etmək olar.

Beləliklə, qiymətləndirmə tələbələrin qarşıya qoyulan məqsədə uyğun olaraq bilik və bacarıqların inkişaf etdirilməsinə yönəlmiş fəaliyyətini izləmək və bu zaman onların yaranan çətinliklərini aradan qaldırmaq məqsədilə həyata keçirilir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Harmer J. The practice of English language teaching. UK:Pearson, 2015.
2. Hewitt B. C., Ryan M. J., Khus M. T. Assessment of student learning in foreign language//The South Carolina Center for Excellence in the Assessment of Student Learning. South Carolina Commission on Higher Education and the College of Education, University of South Carolina, 1993, p.3-18.
3. Hüseynova G. Kurikulum təliminə praktiki baxış. Bakı: Hədəf, 2017.
4. Jones A. C. Assessment for learning// Vocational learning support programme. Learning and skills development agency. England, 2005, p.1-43.
5. Shiraliyev A. Teaching practice handbook. Bakı: Mütərcim, 2012.
6. Ur P. A course in English language teaching. UK: Cambridge university press, 2012.
7. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 130 nömrəli qərarı.
8. Willis J. A framework for task based learning. England: Pearson, 2001.
9. https://curriculum.gov.mt/en/Assessment/Assessment-of-Learning/Documents/assessment_of_for_as_learning.pdf
10. http://www.edu.gov.on.ca/extra/eng/ppm/ppm155.pdf

**Gunel Khudayarova**

**Summary**

**Assessment of student achivements in English language teaching**

The present article is devoted to determining the benefits of assessment in teaching process, based on transparency and objectivity. It attempts to highlight the significant role of teachers of English as a foreign language in conducting language assessment in the process of teaching. The article deals with summative and formative assessment procedures and views of some scientists about assessment. The ways of evaluating a student's effort and progress are reflected in the article as well.



**Гюнель Худаярова**

**Резюме**

**Оценка достижений студентов по изучению английского языка**

Настоящая статья посвящается определению качества оценивания в процессе обучения английскому языку на основе прозрачности и объективности. На первый план выдвигается значимая роль учителей английского языка как иностранного в проведении языковой оценки в процессе обучения. В статье рассматриваются процедуры суммирующей и формирующей оценки, а также мнения некоторых ученых о критериях оценки. Акцентированы цели, принципы, способы и пути оценивания достижений студентов, а также конкретная регулирующая роль преподавателя в процессе обучения самооценки.


*Rəyçilər: ped.f.d.Q.Axundova, ped.f.d.N.Əliyeva*